# Ədəbiyyatın ailə məhvəri

**RAMİZ QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Ailə insanlığın birgəyaşayış forması kimi hər zaman ictimai həyatın məhvərinə çevrilib, dəyər qazanıb, milli sərvətə çevrilib. Buna görədir ki, xalqımızın min illərlə yaranmış düşüncə və həyat tərzinin məhsulu olan zəngin söz sərvəti içərisində əsas, başlıca yeri, ideya məhvərini təşkil edən məsələlər içərisində məhz sevgi, ailə, sədaqət, vəfa mövzusu gəlmişdir. Ədəbiyyatımızın ən nəhəng simaları da öz yaradıcılıqlarında bu mövzuya əhəmiyyət verərək qiymətli əsərlər ərsəyə gətirmiş, cəmiyyətə dəyərli fikir və nəsihətləri ilə səslənmişlər. Belə əsərlər içərisində Xalq şairi Məmməd Arazın xüsusi istedad və börük ürəklə yazdığı "Paslı qılınc" adlı poeması da yer alır.**

Xalq şairi Məmməd Arazın "Paslı qılınc" əsəri ailə səadəti və kişi mərdliyi məsələsinə həsr olunub. Cəmiyyətin nüvəsi hesab olunan ailə probleminə həsr olunan əsərdə ağlıdayaz, namərd və ictimai vəzifəsini unudan, atalıq kimi şərəfli adı vara-dövlətə qurban verən namərd kişilərin taleyindən bəhs olunur. Müəllif əsas, başlıca sözlərini Hakimin dilindən verir və onun vəzifəsilə cəmiyyəti, insanlarınn mənəviyyat və qəlbini saf-çürük edir. Bir ər və arvadı boşayan hakimin öz içində götür-qoy etməsi, öz qəlbində məhkəmə qurub vicdanını ədalət mühakiməsinə çəkməsi əslində bütün hakimlərə, məhkəmə, hüquq adamlarına səsləniş hesab edilə bilər. Əri tərəfdən aldadılan boşanmış qadının mühakimə tipli sözləri hakimi yerindən oynadır, vicdanını özünə qayıtmağa məcbur edir. Ədalət tərəzisindən insani heysiyyəti unutmuş hakim qadının sözlərindən sonra daha həssas yanaşaraq məsələni insanca həll etmək qərarına gəlir. Əri Musaxanı bağışlamaq təklifinə qadın çox tutarlı cavablar verərək bütövlükdə oxucu rəğbətini qazanır. Qadının "Kişi ayağından yuya bilmərəm, Özgə həyatinin palçığını mən" kimi sözləri ədalət mühakiməsi kimi meyara çevrilir. "Sonralar gördüm ki, atalıq haqqı, Analıq haqqımı əlimdən alıb" fikirləri də qızlarının əvəzindən qərar verən kişilərə mühakimə olaraq səslənir və qızlarının bədbəxtliyinə səbəb olmuş ataların mühakiməsi təsirini bağışlayır. Qadının sözlərindən təsirlənərək öz qərarına yenidən baxmağa vadar olan hakim bir də vicdanla işə yanaşmaq və qərarını saf-çürük etmək üçün qadının boşandığı və başqa bir qadının evində yaşayan Musaxanla görüşmək məqsədilə onlara gedir. Müəllifin:

Vicdan tərəzidir əməllər üçün,
Yaşar allahımız vicdan adında

- deyə sözləri vicdan mühakiməsi anlayışını qüvvətləndirir, insanlarda ədalət istəyini gücləndirməyə xidmət edir. Hakimin qəlbindən qopan "Bir gizli sirr adlı paslı qılıncı Dartıb öz qınından çıxara bilim" sözləri də əslində əsərin sərlövhəsinə çevrilməyə layiq ifadə kimi yer tapır. Qadının "Musaxanı özünə qaytar" ricasına uyğun olaraq Musaxanın ikinci arvadı ilə yaşadığı evə gedən hakim onu tikanlı, qınaqedici sözlərlə oyatmağa, özünə gəlməyə sövq edir və Musaxan hakimin sözlərindən sarsılaraq düşünməyə məcbur olur. Qadası ləqəbli Gülsura kimi kişipərəst qadının əlində oyuncağa çevrilən Musaxana hakim dərs vermək istəyir. "Ya Musaxan olsun, ya İsaxan" şüarı ilə yaşayan kefcil Qadası xanım rəssam ərinin rəsmlərini sataraq kefə baxır, heç bir mənəvi keyfiyyət, qadınlıq nəzakəti, analıq ləyaqəti nümayiş etdirmir. Hakim belə adamın puluna aldanaraq özünü kişilikdən və atalıqdan məhrum edən Musaxana özünə qayıtmağa, özünü mühakimə etməyə stimul verir və ona mənəvi təpki göstərmiş olur. Əsərdəki:

Qaçır, adamların gözündən qaçır,
Özündən bezikib Özündən qaçır.
Qaçır, nə qədər ki gücü var, qaçır,
Sanki cəmiyyətdən qovurlar qaçır

- kimi misralar da Musaxanın daxili-mənəvi aləmindəki təbəddülatı, özünü mühakimə halını, sarsıntı və psixoloji əhval-ruhiyyəsini anlamağa, onun mənəvi vəziyyətini başa düşməyə imkan verir. "Bəlkə də özünə gələnə kimi, Bəlkə də, bəlkə də ölənə kimi" ifadələri Musaxanın daxili mühakiməsinin gələcək vəziyyəti haqda oxucuda təəssürat, fikir formalaşdırır və əsər oxucuları bu sözlərlə mənəvi çarpış-vuruşda buraxaraq bitir. Bir təəfdən də bu misralar oxuculara səslənərək onlara əxlaqi-mənəvi çağırış, duyuru rolunu oynamış olur.

Ailə və sədaqət mövzulu əsərlər arasında Naxçıvan ədəbi mühitinin istedadlı nümayəndələrindən olan şair-dramaturq Müzəffər Nəsirlinin "Atam haqqında ballada" əsəri də mühüm yerə malikdir. Şairin poema yaradıcılığında xüsusi bir yeri və poetik əhəmiyyəti olan "Atam haqqında ballada" əsəri xalqın qəhrəmanlıq ruhunun təntənəsi olaraq səslənən bir əsərdir. Poemada azərbaycanlı bir ailə başçısının müharibədə vətən naminə qəhrəmanlığı və müharibədən sonar isə müharibənin ona, ailəsinə vurduğu şəxsi yara, ağır kədər, dərin ruhi-mənəvi sartsıntı söhbət mövzusu təşkil edir. Hər bir zaman üçün aktual olan bu mövzu şairin poetik istedadı ilə məharətlə, həm də təsirli bir şəkildə yazılmışdır. Doğrdurur, zahirən əsərin əsas, baş qəhrəmanı, taleyi qabarıq görünən bir döyüşçüdür. Onun müharibədə itirdiyi ayaqlar və qazandığı əlilliyin taleyinə, mənəviyyatina vurduğu ağır yara, verdiyi dərin, sarsıdıcı kədər, bundan sonar evinə necə dönmək sualı və onun ruhunda baş verən mənəvi təlatümlər, öz evinə dönməməsi və əlillər evinə sığınması ön plana çıxır. Lakin müəllif bu poetik ustalıqla verdiyi təqdimatın işığında ondan da zəruri, vacib və əzəmətli olan Azərbaycan qadınının - döyüşçünün həyat, ömür gün yoldaşının vəfa və sədaqətini bütün əzəmətilə təqdim edir və əzəmətli, mənən böyük bir ana-qadının sanki taleyini yazdığını oxucusunun diqqətinə çatdırmış olur. Müəllif təhkiyəsi ilə verilən poema epik-lirik bir əsərdir. Müəllif döyüşçünün oğlu olan təhkiyəçinin dilindən təqdim etdiyi bir ailənin taleyini o zamanın yüzlərlə, minlərlə ailəsinin problemi, taleyi olaraq ümumiləşdirir. Əlləri və ayaqları kəsiləndən sonar evinə necə dönəcəyini acı kədərlə düşünən, onsuz da həyatın kədərini az görməyən həyat yoldşına yeni bir dərd verməmək, ağır bir yük olmamaq hissilə ailəsinə dönməyən döyüşçü ata Rusiya şəhərlərindən biində əlillər evində qalmalı olur. Ailəsinə qara xəbərli qara kağız gəlməsinə baxmayaraq həyat yoldaşı, evin anası heç zaman ərinin ölümü ilə qəlbən razılaşmayaraq böyük ümidlə onun yolunu gözləyir, hər gələndən, gedəndən onun xəbərini alır. Kəndə gələn yaralı bir əsgərdən ərinin xəbərini ala bilən ana oturmur və ərinin dalısınca yola çıxır. Uzaq bir şəhərin əlillər evində ana-bala həsrətlə bu atanı gözləyərkən şair çox məharətlə həm körpə balanın, həm də ananın qəlbindən keçən intizar duyğuları və mənəvi çırpıntıları təqdim edir. Uşağın düşüncələri o qədər təsirli, həm də ictimai-mənəvi təsirə malikdir ki, bu hislər həm də insanların, ailələrin, körpə balaların həyat və talelərini təhdid edən hər cür müharibəyə qarşı nifrət və lənət hisləri yağdırır:

Ətrafa baxırdım, susmuşdu anam...
Mənimsə gözümdə, doğrusu, bu dəm
Bir cavan heykələ dönmüşdü atam.
Sanırdım uzaqdan bir dağ gövdəli
Qəhrəman gələcək görüşə bizlə.
Qəlbində məhəbbət qucaqlayaraq
Məni öpəcəkdir o gülərüzlə.
Qarşımda göründü bir "yarım adam"!
Nə qolları vardı, nə də qıçları.
Baxdım, gözlərimə mən inanmadım,
Sən demə insan da olarmış yarı!
Elə bil anamı vurdu ildırım,
Boylu çinar kimi sərildi yerə.

Müharibələrin dağ gövdəli ataları "yarımadama" çevirmə kədəri bir uşağın qəlbindən və gözündən çox uğurla ifadə edilmişdir. Əslində bu, həm də bir körpənin duyğuları, keçirdiyi hiss və sarsıntıları ilə ataları, ailələri şikəst edən müharibələrə qarşı bir üsyan səsidir.

Əsgər atanın dilindən deyilən:

Nə edim, mənimki belə gətirdi,
Mərdliklə döyüşdüm ön cəbhələrdə...
Minalar partladı dörd tərəfimdə
Sınıb palıd kimi paralandım mən.
Çoxdan yaşayıram əlil evində
Sizinçün yük olmaq istəmirəm mən -

sözlərlə əlil düşən döyüşçü atanın mənəvi sarsıntılarını ustalıqla dilə gətirmişdir. Əlbəttə, bu sözlərin bir atanın, bir ərin, bir kişinin dilindən çıxması heç də asan deyil. Amma nə qədər çox sevsə də, həsrət çəksə də, ailəsinə yük olmamaq üçün ürəyinə daş basıb uzaq bir şəhərin əlillər evində yaşamaq yolunu seçən atanın həm də mərdanəliyi özünü təzahür etdirir. Amma qadının ərinin düşüncələri müqabilində dediyi sözlər daha möhtəşəm, daha əzəmətlidir. "Orada mən kimə lazımam axı" sarsıntılı sözlərinin qabağında ömürgün yoldaşı:

Sən elə Vətənə, bizə gərəksən,
Sən Vətən yolunda olubsan əlil.
Necə ki dünyada hələ varam mən
Qəlbimiz qəlbindən ayrılan deyil, -

deyə tutarlı, möhtəşəm cavabla həyat yoldaşının ümidsiz, sınıq qəlbini almağa müvəffəq ola, onu öz elinə, ailəsinə, yuvasına geri dönməyə təhrik edə bilir. Bu baxımdan əsərdə bir azərbaycanlı döyüşçü, əlil atanın ailə haqqında nə qədər mənəvi əzəməti öz təcəssümünü tapırsa, ananın timsalında da Azərbaycan qadınının mənəvi əzəməti, ucalığı, sədaqəti, vəfası, cəfakeşliyi, yuva qoruyucu olması öz möhtəşəm təcəssümünü əks etdirmişdir. Sədaqət və cəfakeşlik mənəvi sarsıntı və ümidsizliyə qələbə çalır, məhəbbət müharibəyə qarşı zəfər əldə edir, yuva sevgisi və vəfa ayrılan yolları yenə də bir dam altında birləşməyə nail olur. Poemada məhz ailə sədaqəti, ər-arvad sevgisi, insani məhəbbət duyğuları qələbə, xoşbəxt duyğular bəxş edir və bir ailənin yenidən qovuşma təntənəsinə çevrilmiş olur.

İstedadlı qələm sahiblərindən olan Hüseyn Razinin "Sədaqət" və "Dünya sevənlərindir" poemaları da insanlar arasında sevgi və sədaqət mövzusuna həsr edilib. "Sədaqət" poeması epik-lirik, "Dünya sevənlərindir" poeması isə lirik poemadır. Hər iki əsərdə saf, təmiz sevgi və sonsuz sədaqət, qırılmaz vəfa tərənnüm və təsvir edilir. "Sədaqət" poemasını fərqləndirən əsərdəki əhvalat və hadisələrin iki gənc arasındakı ailə bağları kontekstində konkret həyat, ömür yolu çərçivəsində sınaqlarla təzahür tapmasındadır. Müharibənin ailələrə vurduğu dəhşətli zərbələr əsərin başlıca məsələlərindəndir. İkinci Dünya müharibəsinin insanlara gətirdiyi bəla və kədərin miqyası bir gənc ailənin timsalında təqdim edilmişdir. Yavər və Xavər gənc ailə olan və bir-birini sevən gənclərdirlər. Onların körpəli, xoşbəxt duyğular yaşayan ailəsinin gözəl günlərini başlanan müharibə acı zəhrimara çevirir. Minlərlə oğuldan biri kimi Yavər də müharibəyə yollanır. Minlərlə gənc qadından biri kimi Xavər də körpələrini tək böyütmək, gecəli-gündüzlü işləmək məcburiyyətində qalır. Müharibə bitsə də, bəzi evlərin qaranlığına nur yayılsa da, gedənlər geri dönüb ailələrini sevindirsələr də, həsrət dolu minlərlə gözlər yollara dikili qalır yenə. Xavərin də əri gənc Yavərdən xəbər-ətər gəlmir ki, gəlmir. Əksinə, onun qara kağızı gənc ailənin gözləntilərinə məzar qazır. Bununla belə hər cür çətinliyə sinə gərən Xavərin ümıdləri heç zaman tükənmir. Bakıdan Çiçək adında bir jurnalist qız gəlir və bu dolaşıq məsələnin çözülməsində Xavərə kömək etmək istəyir. İzlər və ehtimallar Çiçəyi Xavərin ümidlərində haqlı olduğuna inandırır. Çiçək izinə düşdüyü şeylərlə Yavəri tapır. Məlum olur ki, müharibədə ayaqlarını itirən Yavər belə şikəst halda geri dönmək, ailəsinə yük olmaq istəməmişdir. Əvvəlcə Çiçəyin geriyə, ailəsinə dönmək təklifinə Yavər müsbət cavab verməmişdir. Yavər ailə məhəbbətilə alışıb-yansa da, içindəki qürur, ailəsinə əziyyət verməmək istəyi onu bu arzuya qarşı çıxmağa vadar etmişdir.

Əsərdə sanki sədaqət, vəfa sınanır. Dağ gövdəlı gözəl-göyçək bir adamı sevməyə nə var kı?! Müəllif sanki bu fikirlər kontekstində indi əlini-ayağını itirmiş, dağ gövdəsindən geriyə kiçik, şikəst bir bədəni qalmış gənc oğlanın həyat yoldaşı tərəfindən necə qarşılanacağı intizarını dilə gətirir. Xavər daha mərd, daha böyük, daha əzəmətli bir insan-qadın təsiri bağışlayır, ərini bu halda - "yarımadam" halında görsə də, ona olan sevgisi və sədaqəti tükənmir, ona sarılaraq birlikdə öz yuvalarına dönmək ehtirasını ifadə edir. Yavərin evlərinə dönməmək inadına qarşılıq sədaqətli və vəfalı Xavər:

Onda mən gələrəm, uşaqlar gələr!
Sənsizlik illərlə yandırıb bizi.
Bizim bu ibrətli taleyimizi
Hərbin alovuna düşənlər bilər.
Bəli, biz gəlirik, - söylədi Xavər.
Köksündə qabardı tükənməz qürur.
Dedi: - Döyüşlərdən mərd çıxan əsgər,
Mənim məhəbbətim, vüqarımdısa,
Ümidim, sevincim, qubarımdısa,
Bir xalqın, ölkənin cəsur oğludur, -

deyə əsl qadınlıq hünəri göstərib sınmaz, qırılmaq sədaqət nümunəsi sərgiləyir. Beləliklə, sədaqət, vəfa, məhəbbət vüqara, inada qalib gəlir, müharibənin yaratdığı fəlakətləri insanların mehri-məhəbbətləri müalicə edir, sağaldır, ortadan qaldırır. Beləliklə, insan məhəbbəti hər cür çətinlik və ümidsizliyə qalib gələrək yenə də kədəri sevinclə, dağılmış ailəni xoşbəxtliklə tamamlayır.

Poemanın məzmunu və ideyası müasir dövrümüzdə Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi uğrunda Vətən müharibəsi və ondan sonrakı hadisə və yaşantıları da xatırladır. Həyat yoldaşları Vətən müharibəsində qazi olan qürurlu, məğrur və sədaqətli Azərbaycan qadınlarının taleyi və simasını Xavər obrazının simasında çox aydın görmək olur.

Şair Hüseyn Razinin "Dünya sevənlərindir" poeması görkəmli Azərbaycan şairi Nizami Gəncəviyə ehtiramla yazılıb. Nizami Gəncəvinin məşhur beytlərindən birinə epiqrafla başlayan əsərdə sevgi və məhəbbət duyğuları bütün ülviliyi, saflığı ilə tərənnüm və vəsf olunur:

Həyata sevgimiz, məhəbbətimiz
Ən böyük ümmandır yer kürəsində.
Eşqsiz dünyadan ayrılınq biz,
Yer də qərar tutmaz cazibəsində.

Forma rəngarənginliyinə malik olan poemada ideyanı təsbit və təsdiq üçün çox uğurlu fikir mühakiməsi aparılır, idiomatik modellərdən istifadə edilir. Şairin: "Bu dünyanı yaşadacaq Sevgisilə, həvəsilə, Məhəbbətlə zirehləşən sinəsiylə Gözəlliyi qoruyanlar", - deyə ifadə etdiyi fikir əsərin mühüm ideya-estetik yük daşıyan tezislərindən birinə çevrilir. Şair inanır və inandırır ki, "Məhəbbətdə hər nifrəti, Ən amansız ədavəti Ram eləmək qüdrəti var". Həmçinin məhəbbəti yaşadanların, sevməyi bacaranların sayəsində "Hikkə, nifrət öləcəkdir. Məhəbbət yüksələcəkdir".